**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə fəaliyyəti haqqında**

# H E S A B A T

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, respublikanın tərəfdar olduğu beynəlxalq konvensiyaları, dövlət proqramlarını rəhbər tutaraq müvafiq sahələr üzrə vəzifələrini icra edir.

Komitə 2023-cü ildə əsasnaməsi ilə müəyyən edilmiş istiqamətlər üzrə və iş planına uyğun fəaliyyət göstərmişdir. Öz fəaliyyətində o, bütün dövlət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları və media qurumları ilə səmərəli əməkdaşlıq etmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində Komitə tərəfindən **6 sənəd layihəsi (**“Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın icrası istiqamətində 5 sənəd layihəsi və “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nda dəyişiklik edilməsi haqqında AR Nazirlər Kabinetinin Qərar layihəsi.sənəd layihəsi) üzərində razlaşdırma və təkmilləşdirmə işləri davam etdirilmişdir. Həmçinin Komitəyə müvafiq qurumlardan daxil olan **4 sənəd** layihəsinə rəy və təkliflər verilmişdir.

**“Heydər Əliyev ili” çərçivəsində Komitə tərəfindən** Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə əməkdaşlıq çərçivəsində “Ailə Festivalı” keçirilmişdir. Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin nümayəndələri və Türkiyə Respublikasında təbii fəlakət nəticəsində zərərçəkmiş 7 ailə də daxil olmaqla festivalda **500**-dən çox insanın iştirakı təmin edilmişdir.

Yeni Azərbaycan Partiyası və Komitənin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və müasir Azərbaycanın siyasi sistemi: plüralizm və bərabər imkanlar” mövzusunda konfrans keçirilmişdir. Tədbir Ümummilli Liderin irsində plüralizmə və bərabər imkanlara, ədalət prinsipinə və demokratik dəyərlərə söykənən dövlət quruculuğu, o cümlədən müasir siyasi sistemin formalaşdırılması məsələlərinə həsr olunmuşdur.

“Böyük Qayıdışa zəmin yaradan Ulu Öndər” mövzusunda “Ən yaxşı yazı” müsabqəsinin yekunlarına həsr edilmiş tədbir keçirilmişdir. Müsabiqəyə **50**-dən çox rayondan və Naxçıvan Muxtar Respublikasında **175** yazı daxil olmuşdur. Tədbirdə iki nominasiya ( yazarlar və məktəblilər) üzrə qalib olan **10** nəfər yazar və məktəbli diplomla təltif edilmiş və hədiyyə ilə mükafatlandırılmışdır.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan Qadınlarının VI Qurultayı keçirilmişdir. **600** nəfərin iştirakı ilə keçirilən qurultayda 4 panel üzrə müzakirələr həyata keçirilmişdir. Qurultayın yekununda gələcək hədəfləri müəyyən edən və vacib məqsədləri özündə əks etdirən Qətnamə qəbul edilmişdir.

Komitə tərəfindən respublikanın müxtəlif bölgələrindən şəhid və qazi övladları, uşaq evi sakinləri, eləcə də sağlamlıq imkanları məhdud, sığınacaqlarda müvəqqəti yaşayan uşaqlar, o cümlədən Bakının **12** rayonu və Zəngilanın Ağalı kəndini təmsil edən uşaqlar daxil olmaqla ümumilikdə **400** uşağın iştirakı ilə “Uşaqlar bizim gələcəyimizdir” adlı bayram şənliyi təşkil olunmuşdur.

Gəncə və Naftalan şəhəri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları üzrə 14-18 yaş qruplarından olan uşaqlar arasında Ulu Öndərin 100 illiyinə həsr edilmiş “Zəfərə Aparan İdeya” adlı müsabiqə keçirilmişdir. Müsabiqəyə ümumilikdə 100-ə yaxın layihə qəbul edilib. Onlardan **3**-ü əsas iş hesab olunaraq ilk üçlüyə daxil edilmiş və mükafatlandırılmış, **7**-si isə həvəsləndirici hədiyyə və diplomla təltif edilmişdir.

Eyni zamanda 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən müxtəlif formatlı tədbirlər, o cümlədən elmi konfranslar, dəyirmi masalar, istedadlı gənclərin, uşaq və yeniyetmələrin iştirakı ilə maarifləndirici görüşlər, müsabiqələr, ustad dərsləri, idman yarışları keçirilmişdir.

**Ailə məsələləri ilə bağlı** il ərzində keçirilən **66** təlim, seminar və icma görüşlərində **10 379** nəfər iştirak edərək faydalanmış, **7 sosial layihə** keçirilmişdir.

“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”na uyğun olaraq 2023-cü il ərzində mərkəzi və yerli icra hakimiyyəti orqanları, qurumlar tərəfindən görülmüş işlər barədə hesabat hazırlanaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və Komitənin rəsmi saytında yerləşdirilmişdir.

**İl ərzində** Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Komitə tərəfindən respublikanın **11** tam orta məktəb və digər təhsil müəssisələrində **15** mövzuda (“Sağlam ətraf mühit – Sağlam həyat tərzi”, “Sağlam həyat tərzi, yoxsa zərərli vərdişlər?”, “Gələcəyimizi bir yerdə qoruyaq, narkomaniyaya Yox deyək!”, “Doğulacaq uşağın cinsinin seçilməsi ilə mübarizə”, “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması”, “Erkən nikahın və qohumlar arasında nikahın fəsadları”, “Ailə dəyərləri və ənənələr”, “Məişət zorakılığı” və s.) görüşlər keçirilmişdir. Görüşlərdə **3603 nəfər** iştirak etmişdir.

2023-cü ilin iyul ayından etibarən Komitə, “Regional İnkişaf” İctimai Birliyi və UNICEF-in Azərbaycandakı nümayəndəliyinin birgə tərəfdaşlığı ilə www.eudi.az onlayn resurs portalı və sosial media səhifələrinin fəaliyyəti həyata keçirilir. Portal və sosial media səhifələri vasitəsi ilə cəmiyyət üzvlərinə və valideynlərə erkən uşaqlıq dövründə inkişaf məsələləri ilə bağlı faydalı məlumatlar çatdırılır, mövcud **10** təlim modulu vasitəsilə mütəxəssislərin bilik və bacarıqları artırılır. 6 ay ərzində portala **99 000-**dən çox istifadəçi baxış keçirmiş, **2706** nəfər portalda qeydiyyatdan keçmiş, **820** nəfər təlim modullarını bitirərək onlayn sertifikat almışdır. Müxtəlif mövzularda keçirilmiş **4** vebinara ümumilikdə yalnız sosial media səhifələri vasitəsilə **20 000**-dən çox baxış olmuşdur.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin və Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə qızların cəmiyyətdə bərabərhüquqlu iştirakçılığının artırılması, qızlar arasında idmanın təşviqi və sağlam həyat tərzinin təbliği məqsədilə “Gücümüz cəsarətimizdədir” adlı aksiya keçirilmişdir. Aksiyada **600-dən çox** qızın iştirakı təmin edilmişdir.

2022-2023-cü tədris ili ərzində qız uşaqlarını təhsildən yayındıran ailələr barədə yerli icra hakimiyyətləri vasitəsilə müvafiq məlumat bazası yaradılıb. Alınan məlumatların araşdırılması məqsədilə Komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən ailələrə səfərlər təşkil olunmuş, ailələrin qiymətləndirilməsi və nəzarətə götürülməsi məqsədilə müvafiq tədbirlər görülmüşdür.

Komitə tərəfindən “Ailə və nikah institutunu dəstəkləyən əsas mexanizmlər”, “Bağlanma nəzəriyyəsi ilə oyun terapiyasının əlaqəsi” və “Uşaqlarda diqqət əksikliyi və

hiperaktiv pozuntu” mövzularında Türkiyədən dəvət edilən ekspertlərin iştirakı ilə təlimlər keçirilmişdir.

“Azercell MMC” Telecom şirkəti ilə birgə əməkdaşlığın davamı olaraq, 25-60 yaş kateqoriyalarını əhatə edən **200.000** nəfər kişi və qadın abunəçilərinə ailə mövzusunda sosial-maarifləndirmə mesajları göndərilmişdir.

Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Göydən üç alma düşdü” adlı nağıl günləri keçirilmişdir. Musiqi müşayiəti və məşhur uşaq yazarlarının, eləcə də Türkiyədən dəvət olunmuş hekayəçilərin iştirakı təmin edilmiş nağıl günlərində əsas məqsəd uşaqların hər iki ölkənin mədəniyyəti, adət və ənənəsi, folkloru, nağılları ilə yaxından tanış olması, onlar arasında mütaliə vərdişlərinin formalaşması, asudə vaxtının səmərəli təşkili və oxu mədəniyyətinin kütləvi şəkildə təbliğidir. 3 gün ərzində keçirilən nağıl günlərində **5000**-dən çox nəfər iştirak etmişdir.

Ali Məhkəmənin və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə “Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət” mövzusunda konfrans təşkil edilmişdir.

Nümunəvi ailələrin cəmiyyətə təqdim edilməsi məqsədilə il ərzində “Ailələrimizi tanıyaq” layihəsi çərçivəsində müxtəlif rayonları təmsil edən nümunəvi ailələr barədə məlumatlar hazırlanaraq və Komitənin saytında, sosial şəbəkə səhifələrində yerləşdirilmişdir.

2023-cü İl ərzində **Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin** fəaliyyətindən ümumilikdə **32 399** nəfər bəhrələnmişdir.

UADM-lərə 3043 nəfər tərəfindən müxtəlif mövzularda **3096** müraciət daxil olmuş və **1001** ailəyə səfər edilmişdir. Bu müraciətlərdən **1224-**ü təmin edilmiş, digərləri isə yönləndirilmiş və nəzarətdə saxlanılmışdır.

UADM-lər tərəfindən psixoloq, sosial işçi və hüquqşünasların iştirakı ilə **8** “açıq qapı” günü keçirilmişdir. “Açıq qapı” günlərində ümumi olaraq **931** vətəndaş müraciət etmişdir.

Mərkəzlər tərəfindən müxtəlif mövzularda **6417** ədəd maarifləndirici vərəqələr paylanılmışdır.

**Postmüharibə dövründə psixososial işin aparılması** məqsədilə **203** şəhid və qazi ailəsinə səfər edilmiş və həmin ailələrdən olan uşaqlar yerli Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin xidmətlərinə cəlb edilmişdir.

Əlavə olaraq “Postmüharibə dövründə uşaqlar və şəhid ailələrinə psixososial dəstək” layihəsi çərçivəsində Ağdam və Tərtər rayonunun 2 kəndində 6-16 yaşlı **100** uşağa psixososial dəstək göstərilmişdir.

Erkən nikah, məişət zorakılığı, sağlam həyat tərzi və reproduktiv sağlamlığın, milli mənəvi dəyərlər və vətənpərvərlik, insan hüquqlarının təbliği eyni zamanda dövlət proqramları və milli fəaliyyət planlarının müvafiq bəndlərinin icrası məqsədilə keçirilən **601** tədbirdən **27 807** nəfər iştirakçı bəhrələnmişdir.

2023-cü il ərzində **Qadın problemləri və gender məsələləri** sahəsində ümumilikdə **2666** nəfərin iştirakı ilə **15** təlim, seminar, konfrans keçirilmişdir.

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2022-ci il üzrə Məlumatını Milli Məclisdə təqdim etmişdir.

Hesabat ili ərzində "İctimai sektorda qadınlar və müasir çağırışlar" və "Tikinti sektorunun inkişafında qadınların rolu, problem və perspektivlər" mövzularında konfranslar təşkil edilmişdir.

8 mart Beynəlxalq Qadınlar ərəfəsində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunan, Azərbaycanın ictimai-siyasi həyatında fəal olan qadınların iştirakı ilə bayram tədbiri keçirilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsində qadınlar arasında **"İdman Həyatdır" adlı badminton turniri** keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin əməkdaşlığı ilə birgə akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar Naxçıvan şəhərində "Elmdə qadınlar" adlı konfrans keçirilmişdir. Tədbirdə Zərifə Əliyevanın xatirəsinə həsr olunmuş müsabiqənin qalibləri, eləcə də təhsildə nailiyyətləri ilə seçilən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbə qızları mükafatlandırılmışdır.

2023-cü il ərzində ali məktəblərə daxil olmuş Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi, müqəddəs torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda həlak olmuş şəhidlərin həyat yoldaşları ilə görüş keçirilmişdir. Görüş zamanı "Sən Tək Deyilsən" şəhid xanımlarının təhsilinə dəstək layihəsi çərçivəsində Komitə ilə Azərbaycan Banklar Assosiasiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır..

Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə "Qızların təhsilinə dəstək" lahiyəsi çərçivəsində "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı - 2023"-ün təqdimat mərasimi keçirilmişdir, təhsilinə dəstək göstəriləcək **54** nəfər tələbə qıza sertifikat təqdim edilmişdir.

İşğaldan azad olunmuş ərazilərə geri qayıdan əhalinin adaptasiyası ilə bağlı tədbirlərin daha səmərəli həyata keçirilməsi üçün müvafiq dövlət orqanları əməkdaşlarının peşəkar təlimlərə cəlb olunması istiqamətində Komitə tərəfindən Binəqədi Rayon İcra Hakimiyyətinin əməkdaşlığı ilə birgə "Gender bərabərliyinə maneə olan amillər" mövzusuna həsr olunmuş seminar keçirilmişdir.

Respublikanın hər rayonu üzrə bələdiyyədə fəaliyyət göstərən gender komissiyalarının üzvlərinin iştirakı ilə "Gender bərabərliyi və yerli idarəetmə", Naxçıvan Muxtar Respublikasında "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunun həyata keçirilməsində genderə məsul şəxslərin rolu" mövzularında təlimlər keçirilmişdir.

Həmçinin Zəngilan rayonunun Ağalı kəndində **40** nəfərin iştirakı ilə "Qadınların rəqəmsal bacarıqlarının artırılması" mövsusunda təlim həyata keçirilmişdir.

Hər il olduğu kimi 2023-cü ildə də Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı Nümayəndəliyi ilə birgə "Gender Əsaslı Zorakılığa Qarşı 16 Günlük Fəallıq Kampaniyası" çərçivəsində tədbirlər keçirmişdir.

"Qadın və qızlara qarşı zorakılığa son qoymaq üçün birləşək!" şüarı altında cəmiyyətin diqqətini qadınlara və qızlara qarşı zorakılıq probleminə çəkmək məqsədi ilə keçirilən maarifləndirmə tədbirləri Qadın Resurs Mərkəzlərinin yerləşdiyi **6** rayonda (Xəzər, Biləsuvar, Masallı, Bərdə, Sabirabad, Sumqayıt şəhəri) təşkil edilmişdir.

Uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və gender stereotiplərinin aradan qaldırılması istiqamətində, eləcə də vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi və ölkədə baş verən proseslərə cəlb olunması məqsədilə Komitənin dəstəyi ilə dizayner, yazıçı və mədəniyyət xadimi Səbinə Zülalova və kəlağayı kolleksioneri kimi fəaliyyət göstərən Zümrüd Rüstəmova tərəfindən "Yaşadaq. Ümid Qanadları" adlı sosial layihə hazırlanıb və Beynəlxalq Muğam Mərkəzində layihənin təqdimat mərasimi keçirilmişdir.

**Uşaq məsələləri ilə bağlı** il ərzində keçirilən **47** təlim, seminar və icma görüşlərində **3314** nəfər iştirak edərək faydalanmış, **7 sosial layihə** keçirilmişdir.

2023-cü il ərzində monitorinq qrupu tərəfindən **10** dövrü və **1** növbədənkənar olmaqla ümumilikdə **11** uşaq müəssisəsində monitorinq keçirilmişdir. Monitorinqlərin nəticələri barədə məlumatlar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur. 10 uşaq müəssisəsinin fəaliyyəti qənaətbəxş, bir müəssisənin *(Sumqayıt şəhər 20 nömrəli körpələr evi-uşaq bağçası)* fəaliyyəti isə qeyri-qənaətbəxş hesab edilmişdir.

Komitə yanında fəaliyyət göstərən Uşaq Səfirlər Məclisinin üzvlərinin və eyni zamanda region nümayəndələrinin iştirakı ilə "Oğlanlar müzakirəyə qoşulur", "Uşaqdan-uşağa" və "Qızlar müzakirəyə qoşulur" adlı layihələri çərçivəsində Bakı şəhərində və regionlarda (Kürdəmir rayonunda Ucar, Göyçay, Zərdab, Sabirabad rayonları üzrə, Şamaxı rayonunda Ağsu, İsmayıllı, Qobustan rayonları üzrə ) təlim və görüşlər təşkil edilmişdir. Eyni zamanda Uşaq Səfirlər Məclisinin hər rayon üzrə regional nümayəndələrinin iştirakı ilə onlayn görüşlər keçirilmişdir.

"Azərbaycan və Türkiyə Hökumətləri arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı" çərçivəsində Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı ilə "Bu günü bərabər inşa edək!" şüarı altında Ankara şəhərində keçirilən 24-cü Beynəlxalq Uşaq Forumunda Azərbaycan Respublikasını təmsil edən uşaqların iştirakı təmin edilmişdir.

Həmçinin məktəblilərin kompüter biliklərinin təkmilləşdirilməsi, proqramlaşdırma dilləri haqqında məlumatlandırılması, rəqəmsal dünya, informatika sahəsinə olan marağının artırılması məqsədilə S.C.Pişəvəri adına Respublika humanitar fənnlər gimnaziyasında **25** uşağa **6** həftəlik "RoboCoder" adlı təlim təşkil olunmuşdur.

Komitənin təşəbbüsü əsasında Dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilməsi riskinin azaldılması məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Sosial Xidmətlər Agentliyinin tabeliyində olan 1, 2 və 3 nömrəli uşaq evlərində sosial-məsləhət saatı və tərbiyə müəssisəsində olan uşaqların cəmiyyətə inteqrasiyası sahəsində hüquq və vəzifələri barədə maarifləndirilməsi məqsədilə isə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Yetkinlik Yaşına Çatmayanlar üçün Tərbiyə Müəssisəsində uşaqlarla görüş keçirilmişdir.

Sabunçu Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (OMBUDSMAN) və Komitənin dəstəyi ilə həyata keçirilən **"Susma, səsini eşitdir!" adlı** layihə çərçivəsində Nardaran qəsəbəsində yerləşən 295 və 130, Bilgəh qəsəbəsində yerləşən 142 nömrəli tam orta məktəblərdə tədbirlər keçirilmişdir.

Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyinin dəstəyi, "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin təşəbbüsü və **10 min nəfərin** iştirakı ilə ikinci "Uşaq Kitab Festivalı" keçirilmişdir.

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil edilmiş “Zəfərin uşaqları” adlı hekayə müsabiqəsində peşəkar ədəbiyyatçı və sosioloqlardan ibarət münsiflər heyəti tərəfindən **74** hekayə qiymətləndirilmiş, münsiflərdən ən çox bal almış ilk 3 yerin qalibi diplom və mükafatla təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2022-ci il, 1599 nömrəli Fərmanına əsasən qurumlararası işin icra mexanizminin gücləndirilməsi məqsədilə dövlət qurumlarının nümayəndələri üçün “Çətin həyat şəraitində olan uşaqların dövlət uşaq müəssisələrinə yerləşdirilmə proseduru” mövzusunda onlayn təlimlər keçirilmişdir.

Komitə tərəfindən “Mənim hüquqlarım” adlı təşviqat avtobusu layihəsi çərçivəsində Xızı, Tərtər, Yardımlı, Zəngilan rayonu Ağalı kəndini əhatə edən görüşlərdə **400**-ə yaxın uşaq iştirak etmişdir.

"Uşaq hüquqları haqqında Konvensiyası”na dair tövsiyələrdən irəli gələn məsələlərə baxılması məqsədilə Komitə tərəfindən yaradılan aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət İşçi qrupun ilk iclası keçirilmişdir.

Türkiyə Respublikasının müvafiq qurumlarının nümayəndələri və **100**-dən çox uşağın iştirakı ilə “Uşaq hüquqları tribunası” mövzusunda konfrans keçirilmişdir.

Maarifləndirmə kampaniyası çərçivəsində “Vətəndaş Cəmiyyətində Debat" İB-nin dəstəyi ilə keçirilən Debat Forumuda 100-dən çox şagird, Şəki və Lənkəran şəhərlərində keçirilmiş təlimlərdə 350-dən çox insan cəlb olunmuşdur.

”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı Müsabiqə Komissiyası tərəfindən informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə 3 ekspert namizədinə ixtisas attestatı təqdim olunmuş, mətbu nəşrlərin müvafiq yaş kateqoriyasına uyğun işarələnmə vəziyyətinə nəzarət məqsədilə “Hədəf Nəşrləri” MMC, “XAN Nəşriyyatı” MMC və kitab evlərinə səfərlər edilmişdir.

Uşaqların kibertəhlükələrdən qorunması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, Xəzər rayonu 218 nömrəli məktəbdə, Suraxanı rayonu 118 nömrəli məktəbdə 7-8-ci sinif şagirdlərinin iştirakı ilə “İnternetdən təhlükəsiz istifadə üçün maariflənək” mövzusu üzrə 70 uşağın iştirakı ilə təlimlər keçirilmişdir.

Həmçinin aidiyyəti dövlət qurumlarının nümayəndələrinin, uşaq hüquqları üzrə mütəxəssislərin, uşaq psixiatrları və psixoloqlarının iştirakı ilə “Uşaqların informasiya təhlükəsizliyi üzrə ekspertlərin bilik və bacarıqlarının artırılması” mövzusunda Türkiyədən dəvət olunan ekspertlərin iştirakı ilə 2 günlük beynəlxalq təlim keçirilmişdir.

Sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası, sosial xidmətlərlə təmin oluması, cəmiyyətə inteqrasiyası və onların valideynlərinə psixo-sosial dəstəyin göstərilməsi məqsədilə daun sindromlu uşaqlar üçün 7 günlük yaz düşərgəsi, uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə Naxçıvan Muxtar Respublikasında, Gəncə, Mingəçevir şəhərlərində və Şamaxı rayonunda 7 günlük futbol düşərgəsi, yeniyetmələr üçün yay tətili müddətində Uşaq Səfirlər Məclisinin 40 üzvündən ibarət “Biz gələcəyik” adlı yay düşərgəsi, qızların ictimai fəallığın artırılması məqsədilə 100 qızdan ibarət “Biz Birlikdə Güclüyük” adlı yay düşərgəsi təşkil edilmişdir.

Uşaqlarda yaranan oyun asılılığının qarşısının alınması istiqamətində “Uşaqlarda müşahidə edilən oyun asılılığı” adlı **60** məktəb psixoloqlarının iştirakı ilə **2** günlük təlim keçirilmişdir.

2018-2023-cü illərdə İraq və Suriya Ərəb Respublikasından Azərbaycan Respublikasına ölkə vətəndaşı olan uşaqlar repatriasiya və deportasiya edilmiş, ailələri tərəfindən qəyyumluq və himayəçiliyə götürülmüş, ehtiyaclarının müəyyənləşdirilməsi, psixo-sosial vəziyyətinin qiymətləndirilməsi istiqamətində mütəmadi işlər aparılmışdır.

**Beynəlxalq əməkdaşlıq sahəsində** Komitə sədrinin Latviyanın, Fransa, Səudiyyə Ərəbistanı Krallığının və Venesuela Bolivar Respublikalarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, Avropa Şurasının Azərbaycandakı ofisinin rəhbəri, Serbiyanın ailə rifahı və demoqrafiya naziri, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMPTİ) rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Nuno Queiros, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan Respublikasındakı Nümayəndəsi, Özbəkistan Respublikası Prezidenti yanında Sosial Müdafiə üzrə Milli Agentliyin direktoru, BMT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, Türkiyə Respublikasının Ailə və sosial xidmətlər naziri, Özbəkistan Respublikasının Baş Nazirinin müavini xanım Züleyxa Maxamova, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Hayar Aavatif, İSESKO-nun Sosial və Humanitar Elmlər Departamentinin direktoru, BMT -nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, Koreya Respublikası Milli Assambleyasının üzvü və Gender Bərabərliyi və Ailə Komitəsinin sədri ilə görüşü keçirilmişdir.

Komitə sədri İran İslam Respublikasının Tehran şəhərində keçirilən "Nüfuzlu qadınların birinci beynəlxalq konqresi"ndə iştirak etmişdir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Komitəsinin İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən 92-ci sessiyası çərçivəsində Azərbaycan Hökumətinin BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası" üzrə beşinci və altıncı birgə dövri məruzəsinin dinləməsi keçirilmişdir. Hesabat zamanı Komitə sədri dövr ərzində ölkədə BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nın icrasına dair məruzə ilə çıxış etmişdir.

Komitənin sədr müavini Sədaqət Qəhrəmanova ABŞ-ın Nyu-York şəhərində keçirilən BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) Qadınların Vəziyyəti üzrə Komissiyasının "Qadın və qızların səlahiyyətləndirilməsi və gender bərabərliyinə nail olunması üçün innovasiya və texnoloji dəyişikliklər və rəqəmsal dövrdə təhsil" mövzusunda keçirilən 67-ci sessiyasında, Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi və İslam Əməkdaşlıq Təşkilatının birgə təşkilatçılığı ilə "İslamda Qadın: onların mövqeyi və səlahiyyətləndirilməsi" mövzusunda Ciddə şəhərində keçirilən beynəlxalq konfransda, BMT-nin Mərkəzi Asiya Dövlətləri üçün Xüsusi Proqramının (SPECA) Gender və Dayanıqlı İnkişaf Məqsədləri üzrə İşçi Qrupunun "Gender bərabərliyi: SPECA regionunda qlobal bağlantı və transformativ inkişaf üçün katalizator" mövzusunda iclasında iştirak etmişdir.

"2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrası üzrə Hökumət-BMT Birgə İstiqamətləndirici Komitənin iclasında Komitənin sədr müavini Aynur Sofiyeva iştirak etmişdir. Tədbirdə Çərçivə Sənədinin 2023-cü il üzrə icrası üçün Birgə İş Planları müzakirə edilərək təsdiq olunub.

Avropa Şurasının Uşaq Hüquqları üzrə Rəhbər Komitəsinin (CDENF) 7 və 8-ci iclasında, İslandiyanın Təhsil və Uşaq Nazirliyinin Avropa Şurası ilə birgə təşkilatçılığı çərçivəsində "Uşaqlara investisiya-rifahın açarı" adlı konfransda, eləcə də "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının

(Lanzarote Konvensiyası) Tərəflər Komitəsinin 37, 38, 39 və 40-cı iclaslarında, "Qadınlara dəstək sahəsində Özbəkistan və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin təcrübəsi" mövzusunda Səmərqənd şəhərində keçirilən Beynəlxalq Qadınlar Forumunda, Türkiyə Spastik Çoçuklar Vakfı və Mətin Sabancı Mərkəzində keçirilən yekun hesabatın təqdim edildiyi tədbirdə Komitənin aparat rəhbəri Ceyran Rəhmətullayeva iştirak etmişdir.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə Özbəkistan Respublikası Məşğulluq və Yoxsulluğun Azaldılması Nazirliyi arasında ailə və uşaqların müdafiəsi sahəsində əməkdaşlıq haqqında Protokol" imzalanmışdır. Sözügedən Protokolda ekspertlərin qarşılıqlı məsləhətləşmələri, müvafiq milli qanunvericilik aktları barədə məlumat mübadiləsi və s. fəaliyyətlərin həyata keçirilməsi öz əksini tapmışdır.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elan etdiyi təşəbbüs çərçivəsində Azərbaycanın sədrliyi, Uqanda və Özbəkistanın həmsədrliyi ilə Bakı şəhərində Qoşulmama Hərəkatına üzv dövlətlərin "Qadın Hüquqlarının (QH) İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi" mövzusunda ilk yüksək səviyyəli konfransı keçirilmişdir. Konfransın birinci günü QH üzv və müşahidəçi ölkələrinin, habelə xüsusi qonaq qismində dəvət olunan ölkə və beynəlxalq təşkilatların nümayəndələri mövzu üzrə ümumi müzakirələr aparmış və çıxışlar etmişlər. Günün yekununda Bakı Bəyannaməsini yekdilliklə qəbul edilmişdir. Bəyannamədə qadınların hüquqlarının inkişafı və səlahiyyətləndirilməsi, dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində qadınların rolu, birtərəfli məcburedici tədbirlərin qadın hüquqlarının təmin edilməsinə mənfi təsirləri və digər bu kimi aktual məsələlərə dair Hərəkatın mövqeyi sərgilənir. Bakı Bəyannaməsində, həmçinin Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü əsasında QH-nin Qadın Platformasının yaradılması istiqamətində QH Əlaqələndirici Bürosu daxilində müzakirələrin aparılması təklifi əks olunur.

Konfrans çərçivəsində "Qadınların hüquq və səlahiyyətlərinin artırılmasında qeyri-hökumət təşkilatlarının rolu" və "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişafı" mövzularında yan tədbirləri keçirilmişdir.

Komitə **Kütləvi İnformasiya Vasitələri** ilə səmərəli əməkdaşlıq edərək, KİV tərəfindən daxil olmuş **167** media müraciətinin cavablandırılmasını təmin etmişdir. Bu müracətlərin əsas mövzuları uşaq hüquqları və uşaq iştirakçılığı (**35**), nikah və boşanma **(25)**, məişət zorakılığı (**13**), erkən nikah və təhsildən yayınma halları (**21**) ilə bağlı olmuşdur.

Komitə tərəfindən "Kommunikasiya Strategiyası", "Sosial Media Siyasəti" və "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi: İdeologiyanın əsasları" ilə bağlı hesabatlar hazırlanmışdır.

Hesabat ilində Komitə sədri Bahar Muradovanın Dövlət Komitəsinin 2023-cü ilin 6 aylıq fəaliyyətinə həsr olunmuş brifinqi keçirilmişdir.

İnsan alverinə qarşı mübarizəyə dair Milli Fəaliyyət Planının müvafiq bəndlərinin və BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsinin tövsiyələrinin icrası məqsədilə media nümayəndələri üçün (30 jurnalist) "İnsan alveri ilə mübarizədə medianın rolu: qadın və uşaq hüquqları" adlı təlim keçirilmişdir.

Komitənin jurnalistlər arasında elan etdiyi "Ailə, qadın və uşaq mövzuları mediada" müsabiqəsinin mükafatlandırma mərasimi keçirilmiş və müsabiqənin qalibləri

mükafatlandırılmışdır.

Audiovizual Şura ilə birgə əməkdaşlıq çərçivəsində Gəncə şəhərində “Audiovizual mediada uşaq hüquqlarının qorunması” mövzusunda jurnalistlərin iştirakı ilə dəyirmi masa təşkil olunmuşdur.

**“İctimai iştirakçılıq: təşəbbüslər və yeni çağırışlar”** mövzusunda konfrans keçirilmişdir. Konfrans çərçivəsində 2 il ərzində uğurlu fəaliyyət göstərdiyinə görə İctimai şura üzvlərinə təşəkkürnamələr verilmiş, eyni zamanda Komitəyə yeni seçilmiş 11 İctimai şura üzvünə vəsiqələr təqdim edilmişdir.

Həmçinin Komitə tərəfindən “Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger” mövzusu üzrə II Bloger Müsabiqəsinin mükafatlandırma mərasimi keçirilmişdir. Müsabiqədə **22** bolger iştirak etmişdir.

2023-cü il ərzində Komitə tərəfindən **8** müxtəlif mövzuda **araşdırma və təhlil** yekunlaşıb:

- Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsi;
- Azərbaycanda erkən uşaqlıq dövründə xidmətlərin əlçatanlığı və təminatı;
- Uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması:Qanunvericilik və onun tətbiqi praktikası”;
- Azərbaycanda dövlət qulluğuna qəbul ilə əlaqədar gender təhlili;
- Qadınların qeyri-formal məşğulluğu;
- Medianın intiharlara təsiri;
- Erkən nikah halları;
- Uşaqlar arasında internetdən istifadə səviyyəsinin ölçülməsi.

**Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə.** Komitə və Bakı şəhər Sabunçu Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı çərçivəsində “Məişət zorakılığı törətmiş şəxslərlə iş üçün müdaxilə proqramı”nın təqdimatına həsr olunmuş tədbir keçirimişdir. Bu proqram Komitə tərəfindən Avropa İttifaqının maliyyə dəstəyi ilə icra olunmuş “Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi” adlı Tvinninq layihəsi çərçivəsində Dulut modeli əsasında hazırlanmışdır.

2023-cü ilin sentyabr-dekabr ayları ərzində Komitənin 2 əməkdaşı tərəfindən təlim sessiyaları formatında zorakılıq törətmiş bir qrup şəxsin reabilitasiyası məqsədilə “Məişət zorakılığı törətmiş şəxslərlə iş üçün müdaxilə proqramı" keçirilmişdir.

**Eyni zamanda 14 regionda (Göyçay, Yevlax,** Oğuz, Şəki, Qəbələ, Qax, Zaqatala, Balakən, Astara, Lənkəran, Lerik, Yardımlı, Biləsuvar, Cəlilabad şəhər/rayonlarında), Bakı şəhəri və Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətlərinin Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının üzvləri ilə görüş keçirilmişdir. Görüşün məqsədi məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi və regionlarda zorakılıqla mübarizə sahəsində maarifləndirmə işinin aparılması kimi məsələlərin müzakirə olunmasıdır.

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsində Dövlət Komitəsi və Azərbaycan Respublikasının Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə “Məişət zorakılığına dair qanunvericiliyin tətbiqi” mövzusunda Bakı, Sumqayıt şəhər və Abşeron rayon

məhkəmələrinin hakimləri və AR Vəkillər Kollegiyasının üzvlərinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. Dəyirmi masada məişət zorakılığına dair qanunvericiliyin tətbiqi sahəsində mövcud boşluqlar müzakirə edilmiş və onların aradan qaldırılması istiqamətində təkliflər irəli sürülmüşdür.

Dövlət Komitəsi il ərzində **6 ictimai birlik və qeyri-hökumət** təşkilatı ilə birlikdə **12** tədbir və layihə həyata keçirmişdir. Komitə tərəfindən Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının üzvü olan **“Qadınlar Arasında Həmrəylik” İctimai Birliyi ilə birgə** Bakı şəhərinin 3 ümumi təhsil məktəbində şagirdlər üçün “Uşaqlara korrupsiya haqqında” mövzusunda silsilə maarifləndirici tədbirlər keçirilmişdir.

Komitənin təşkilatçılığı ilə qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün “Korrupsiyanın qadın və uşaq hüquqlarına təsiri” mövzusunda təlim keçirilmişdir. 40 nəfər dövlət və qeyri-hökumət təşkilatının nümayəndələrinin iştirakı ilə baş tutan təlim korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə təşkil olunmuşdur.

**Komitəyə daxil olan vətəndaş müraciətlərinə baxılması, təhlilin aparılması və aidiyyəti üzrə əlaqələndirilməsi ilə bağlı işlərin görülməsi**. İl ərzində Komitəyə **3766** vətəndaş müracəti daxil olmuşdur. Vətəndaş müraciətlərinin mövzular üzrə təhlilindən aydın olmuşdur ki, məhkəmə qərarlarının icrası (**609**), məişət zorakılığı (**553**), işlə təmin olunma **(295),** müxtəlif yönümlü sosial müavinətlərin, yardımların, təqaüdlərin alınması (**274**), müayinə və müalicə olunmaqda köməklik (**165**) ilə bağlı müraciətlər üstünlük təşkil edir.

Eyni zamanda il ərzində 860 Gender-əsaslı zorakılıqla bağlı Dəstək xəttinə **302** müraciət daxil olmuşdur.

Məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə dair lazımı tədbirlər görülmüş, yerli icra hakimiyyətlərinin Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə əlaqə saxlanılaraq, müraciətlər Komitə tərəfindən nəzarətə götürülmüşdür. İl ərzində daxil olan cavab məktublarının təhlili nəticəsində məlum olmuşdur ki, **83** vətəndaşa mühafizə orderi verilmişdir.

Komitə sədri **12 region** üzrə (Xızı, Ağdam, Salyan, Mingəçevir, Quba, Şəmkir, Qax, Sumqayıt, Tərtər, Naxçıvan, Şirvan, Lənkəran) vətəndaş qəbulunu həyata keçirmişdir. Regional qəbullarda **151** müraciətə baxılmışdır.

İl ərzində **Könüllülük proqramına** müraciət edən **75** nəfər arasından **60** könüllü seçilərək, Komitənin işinə cəlb edilmişdir. Komitə tərəfindən könüllülərin Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə 2 səfəri təşkil olunmuşdur (İsmayıllı və Şüvəlan UADM).

**Çap materialları, video roliklər**. Komitə tərəfindən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) və Bakı Dövlət Universitetinin birgə əməkdaşlığı ilə “Gender Bərabərliyi” adlı dərs vəsaiti çap edilmişdir.

Qadın və uşaq mövzularının mediada işıqlandırılması prinsiplərini özündə əks etdirən maarifləndirici vəsait hazırlanmış və 4000 ədəd çap edilmişdir. Vəsait müxtəlif tədbirlərdə jurnalist və blogerlər arasında (170 ədəd) paylanılmışdır.

“Ailə kiçik dövlətdir! Ailələrimizi qoruyaq!”, “Valideyn olmaq üçün öz sağlamlığını qoru! Ailəni planlaşdırsan öz gələcəyini planlaşdırmış olarsan!”, “Uşaq evliliyinə YOX de”,

“Gender bərabərliyi ana bətnindən başlayır”, “Uşaqları təhlükəli oyunlardan qoruyaq” və “Səssiz qalma! Məişət zorakılığına YOX de!” adlı elektron **(6)** posterlər hazırlanaraq, metro stansiyalarında yerləşən elektron lövhələrdə nümayiş etdirilmişdir.

“Uşaqlara dəyər verin, onları qoruyun” və “Qızlarınızı sevin və onların qayğısına qalın!” adlı elektron məlumatlandırma vəsaitləri, eyni zamanda “Sağlam həyat tərzi. Sağlam ömür” adlı elektron poster, “Günəş hamı üçündür” və “Valideyn bələdçisi”**,** adlı məlumatlandırma kitabçaları və “İnsan alverinin qurbanı olmayın” adlı videorolik hazırlanaraq Dövlət Komitəsinin sosial şəbəkə səhifələrində yayımlanmışdır.

“Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsinə dair keçirilmiş tədqiqatın təhlili” adlı kitabça və “Övladlarımız həyatımızın ən böyük layihəsidir”, “Anti-korrupsiya sisteminin bir halqası ol!” adlı videoçarx hazırlanaraq yayımlanmışdır.